# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN SOSİAL MEDİADA ƏKSİ

**Günel Heydərova**

*Üsküdar Universitetinin Yeni medya və ilietişim proqramı üzrə doktorantı*

## Tezislər

General mayor Polad Həşimov həlak olduqdan sonra ictimai rəy xüsusən də sosial mediada ifadə olunurdu. Xalq dövlət başçısı ilə həmrəyliyini Prezident İlham Əliyev cənablarına müraciətində ifadə edirdi. Sosial mediada yayılan xəbərlərlə insanlar könüllü hərbi xidmətə yazılırdı. Hadisələrin gedişatı göstərdi ki, ərazi bütövlüyü uğrunda mübarizədə dünya Azərbaycanlıları həmrəydir.

Xaricdə yaşayan həmvətənlərimiz belə sosial media üzərindən maddi və mənəvi dəstəyi əsirgəmirdi. Müharibənin ilk günlərindən ölkə daxilində internetə çıxış məhdudlaşdırılırdı. İnsanların mariflləndirilməsi, informasiya təhlükəsizliyinin əsas şərtlərindən biridir.

Ölkəmizdə sosial media istifadəçiləri informasiya əldə etmək üçün alternativ yollarla internet məkanına daxil olurdu. Sosial mediada informasiya bolluğu yalan-yalnış məlumatların (fakenews) sürətlə yayılmasına münbit şərait yaradır. Dövlət başçısının Twitter-dən işğaldan azad olunan ərazilər haqqında verdiyi məlumatlar ən dəqiq informasiya hesab olunur.

Dövlət başçısının müharibənin gedişatı haqqında sosial media üzərindən verdiyi məlumatlar nəinki sosial media istifadəçiləri və yerli jurnalistlər, hətta xarici müxbirlər üçün də əsas infomasiya mənbəyi idi.

Müharibə vaxtı və ondan sonrakı dövrdə ölkə prezidentinin çıxışları, brifinqləri sosial media üzərindən milyonlarla insan tərəfindən izlənilirdi.

Rusiya telekanallarında yayımlanan ermənipərəst verlişlərin sosial mediadakı səhifələrində 44 günlük Vətən müharibəsi ilə bağlı diskusiyalarda xalq diplomatiyasının izlərinə rast gəlinir. Müharibə dövründə Rusiya telekanallarında yayımlanan ermənipərəst verlişlərdə fake xəbərlər yayılırdı. Dəyirmi masalarda müzakirə olunan faktlar həqiqəti əks etdirmirdi.

Dövlətin informasi siyasəti sosial media üzərindən uğurla davam etdirilirdi. Pandemiya dövründə xalqın qələbə sevinci ilk olaraq sosial media üzərindən ifadə olunurdu.